Yeni Azərbaycan.- 2023.- 4 iyul





# Əli Tudənin kitabları Təbrizdə nəşr olunub

Cənubi və Şimali Azərbaycanın görkəmli şairi Əli Tudənin 2024-cü ildə anadan olmasının 100 illiyidir. Bu münasibətlə sənətkarın Təbrizdə iki kitabı "Mən nə gətirdim" və " Bakının işıqları" kitabları ərəb əlifbası ilə çap olunub. Bu Azərbaycan ədəbiyyatı üçün əlamətdar hadisə hesab oluna bilər. Çünki ömrü boyu bütöv və azad Azərbaycan arzusu ilə yaşayan, bu yolda yorulmadan qələm çalan, inqilabçı şair, Təbriz həsrətli Əli Tudə 50 il öz vətənində siyasi mühacir kimi yaşamış, Sovet pasportundan imtina etmişdir. Qeyd edək ki, şairin "Cənub nəğmələri" adlı kitabı hələ 1946-cı ildə Milli hökumət zamanı Təbrizdə, şairin Filarmoniyanın müdiri vəzifəsində çalışdığı dövrdə çap olunmalı idi. Lakin Milli Hökumət süquta uğradıqdan sonra onun milli ruhlu şeirlərindən ibarət kitabı mətbəədə yandırıldı və şah tərəfindən ölümünə fərman verildi. Məcburiyyət qarşısında qalan şair Arazın bu tayına keçdi və bir də Təbrizə gedə bilmədi.

Kitablar Təbrizdə "Azərturan" nəşriyyatı tərəfindən işıq üzü görüb. Bu işdə gənc qələm sahibi və tərcüməçi Əli Aslaninin böyük zəhməti var. Belə ki, kitabın tərtibində və çapında bütün məsuliyyət və əziyyət onun üzərinə düşüb. Əli Aslani şairin anadan olmasının 100 illiyinədək Əli Tudənin "Təbriz yolu", "Araz üstə palıd" kitablarını  və xatirələrini çapa hazırlayır.